SİZİN ÜÇÜN QƏZET

6

№23 (3123) 2 - 3 Mart / 2021-ci il

www.hurriyyet.org; / hurriyyet@mail.ru

Baxış

Hürriyyət

**İlk öncə qeyd etmək lazımdır ki, Şəhidlərin və Qazilərin statusunu, onlara verilən güzəştlərin, xidmətlərin, habelə döyüşlərdə yaralanaraq bu və ya digər dərəcədə əmək qabiliyyətini itirən hərbçilərin əlil olaraq qəbul edilib, qiymətləndirilməsində bəzi məqamlara düzəlişlər edilməsi zəruridir.**

# Nə müharibə, nə də mübarizə bitməyib!

## Qələbəni bizə bəxş edənlərə olan borcumuzun bir hissəsini də olsa qaytarmaqla, yeni qəhrəmanlar yetişdirməliyik



*(Əvvəli ötən saylarımızda)*

Cənubi Azərbaycanda türklərin vəziyyəti daha ağırdır. Bu gün İranda təkcə Azərbaycan türkləri deyil, türkmənlər, əfşarlar, qaşqaylar və s. bütövlükdə türklər eyni zamanda üç düşmənə müqavimət göstərmək məcburiyyətindədir. Erməni faşizmi ilə siam ekizi olan fars şovinizmi İranda yaşayan 200-220 min erməniyə qeyri-rəsmi muxtariyyət hüququ verərək, onları dövlətin xüsusi orqanları vasitəsilə sərt nəzarətdə, müəyyən çərçivədə saxlamaqla, onlardan əsasən ölkənin daxilində türk milli mübarizəsini boğmaq üçün və xarici kəşfiyyatda əsasən ancaq casusluq məqsədilə istifadə edir. İranda Səttərxan, Xiyabani, Pişəvarinin başçılıq etdiyi türk milli azadlıq hərəkatının, habelə 1980-83-cü illərdə İrandakı türklərin milli hərəkatının boğulmasında həm ruslara, həm də farslara casusluq edən ermənilərin xüsusi xidməti olmuşdur. İrandakı türklərə qarşı kütləvi zor tətbiqində isə farslar əsasən kürdlərdən istifadə edir. Bununla belə fars dövləti ermənilərə verdikləri milli hüquqların heç birini kürdlərə vermir. Farsların ermənilərlə daha yumşaq davranmasının bir neçə səbəbi var. bu səbəblərdən birincisi ermənilərin ABŞ-da, Avropada (xüsusilə Fransada) və Rusiyada güclü himayədarlarının olması və bu ölkələrdə yaşayan ermənilərin hər üç ölkənin hakimiyyət dairələrinə birbaşa çıxışı və təsir imkanlarının olmasıdır. İkinci səbəb farsların ən çox ehtiyat etdiyi Türkiyədə, Azərbaycanda ermənilərin xeyli sayda yaşaması səbəbindən ermənilərdən türklərə qarşı casusluq xidmətindən istifadə edə bilməsidir.

2016-cı ildən də qabaq Türk-Rus münasibətlərinin yaxınlaşma meylindən xəbər tutan farslar və ermənilər təcili qaydada Rusiyadan uzaqlaşaraq özlərinə başqa dayaq nöqtəsi seçməyə qərar verdilər. Ermənistanın Çinlə 10 milyard dollarlıq, İranın isə Çinlə 400 milyardlıq müqaviləsinin əsas səbəbi məhz Türk-Rus münasibətlərinin yaxınlaşma meylidir. Bunun 2-3-cü dərəcəli səbəbləri də var. Lakin həlledici səbəb türk-rus münasibətlərinin yaxşılaşması fonunda bütün sahələrdə Rusiyanın tənəzzülə, Çinin isə tərəqqiyə doğru sürətlə irəliləməsidir.

2018-ci ildə «Daşnaksütünün» mərkəzi qərargahının İrəvandan Tehrana və İsfahana köçürülməsi də məhz bu səbəblərlə birbaşa bağlıdır. Bu dünyanın böyük gücləri arasında daim gedən dünya ağalığı uğrunda mübarizə prosesinin bu günə olan son durumunun qlobal həlqəsinin daxilindəki lokal bir prosesdir. Əgər biz qlobal mübarizənin 1980-ci illərin əvvəlindəki dövründən başlayaraq bu prosesi izləsək rusların ingilislərlə İranı öz təsir dairəsinə almaq uğrunda mübarizədə R.Xomeynini hakimiyyətə gətirərək, onun əli ilə İranda ABŞ-ın hərbi bazalarını ləğv etdirdiyini və ümumiyyətlə ingilisləri İrandan uzaqlaşdırdıqdan sonra nə Xomeynini, nə də onun qurduğu rejimi asanlıqla ləğv edə bilməyəcəyini başa düşərək, müsəlmanlar üzərinə səlib müharibəsi təşkil etdiyi vaxtdan öz ibtidasını götürdüyü məlum olur. Sovet dövlətinin tarixində ilk dəfə olaraq SSRİ rəhbəri Vatikana səfər edib Roma Papası ilə görüşdükdən sonra Raisa Qorbaçovanın bu görüşdən sonra, vediyi müsahibədə, - «Bundan sonra bütün xristianlar birləşməlidir» cümləsini xüsusi olaraq vurğulaması, ardınca ər-arvad Vatikandan birbaşa Vaşinqtona uçub ABŞ prezidenti ilə görüşdükdən sonra isə M.Qorbaçovun öz müsahibəsində, - «İndi əkscəbhələşmə Şərq və Qərb arasında deyil, Şimal ilə cənub arasında getməlidir», - deməsi hələ bu gün də İranda və Ərəb ölkələrində davam edən qanlı müharibələrin ilk memarının Qorbaçov olduğunu sübut edir. İlk öncə ruslar və ingilislər İraqla İranı baş-başa toqquşdurmaqla öz iddialarını həll etmək istəsələr də bu baş tutmadı. Bu dəfə Kreml Səddam Hüseyni Küveytə hücum etməyə və Küveyti işğal etməyə şirnikləndirə bildi. ABŞ Küveyti azad edib İraqa qoşun yeritdikdən sonra bir müddət SSRİ ilə ABŞ rəhbərlərinin Malta sahillərində sualtı gəmidəki gizli razılaşmasına uyğun olaraq İraqı müdafiə etmədi. Bu barədə Səddam Hüseyn həbs ediləndən sonra peşmançılıq hissi ilə, - «Küveytə hücum etməyə məni Qorbaçov təhrik etdi», - deməsilə kimin tərəfindən tələyə salındığını etiraf etdi. Artıq müsəlmanlara qarşı səlib müharibəsi başlamışdı. Sovet qoşunlarının Əfqanıstandan çıxarılması, SSRİ-nin dağılma prossesi, ardınca Qərbin Çeçenistandan başlayan Rusiyanı tamamilə parçalamaq cəhdi, Rusiyanı ərəb baharında ABŞ-la bərabər hüquqlu şərik qismində iştirak etmək imkanından məhrum etdi. Rusiya ancaq Suriyada Bəşər Əsədin Qəddafi və Səddamın taleyini yaşamaq ərəfəsində özünə gəlib ABŞ-a qarşı müqavimətini gücləndirə bildi. Lakin burada da Rusiyanın müvəffəqiyyət qazanmasında, ABŞ-ın öz hesablamalarında iki böyük səhvə yol verməsi əsas rol oynadı. Birincisi İraqda kürd muxtariyyəti yaradan ABŞ, Suriyada da kürd dövlət qurumu yaradaraq, onları birləşdirib öz siyasətində Türkiyənin əhəmiyyətini aşağı salmaqla, Türkiyəni ələbaxan, vassal dövlət kimi öz tabeliyində saxlamaqla, kürd dövlətindən ona təzyiq vasitəsi kimi istifadə etmək arzusunda oldu. İkincisi isə, birici dünya savaşında avropalılar və Rusiyanın Osmanlı imperiyasını diz çökdürdükləri anda Atatürk kimi bir şəxsiyyətin ortaya çıxaraq Türkiyəni xilas edəcəyi onların ağlına belə gəlmədiyi kimi, ABŞ da Türkiyədə belə bir anda Ərdoğan kimi Türkiyəyə qarşı haqsızlıq edən dövlətlərə meydan ouxyan rəhbərin ortaya çıxa biləcəyini ağlına gətirə bilmədi. Məhz bu amil Suriyada Bəşər Əsədi dar ağacından xilas etməklə yanaşı türk-rus mənafe və münasibətlərinin yaxınlaşması üçün əsas oldu. Məhz bundan sonra qlobal güclər prosesləri xristian-müsəlman qarşıdurmasından sünnü-şiə qarşıdurması müstəvisinə keçirməyə başladılar.

Qlobal güclərin öz aralarındakı mübahisəni məhz sünnü-şiə müstəvisində həll edilməsi, onların hər biri üçün ən ideal variantdır. Belə ki, bu güclərin, yəni nə Qərb+ABŞ cütlüyü, nə Çin, nə də Rusiya ümumiyyətlə müsəlman deyil. İkinisi isə baş verəcək müharibə məhz müsəlman ölkələri ərazisində,əsasən onların öz vəsaiti, canlı qüvvəsi hesabına gedəcək, müharibə ancaq müsəlmanların şəhər və kəndlərini, istehsal, xidmət sahələrini, mədəniyyət abidələrini xarabalığa çevirməklə onları bu güclərdən uzun müddətə tam asılı vəziyyətə salacaq. Nəticədə, bu güclərə ancaq sünnülü, şiəli müsəlmanlara məxus olan torpağı, bu torpaqların yeraltı və yerüstü sərvətlərini öz aralarında heç bir zərər çəkmədən bölüşdürmək qalacaq ki, bu barədə hər hansı bir razılığa gəlmək heç də çətin iş olmayacaq. Bu gün bu bölgünün ancaq bir problemi var. Problem bundan ibarətdir ki, bu qəniməti bölüşdürməyə iddialı olanlar iki yox, üçdur. Bunlardan ikisi, yəni ABŞ və Çin dünyada təkbaşına ağalıq etməyə iddialıdır və bu status uğrunda ikisinin arasında mübarizə ən azı iqtisadi müstəvidə artıq başlanıb. Bu iki dövlətin iqtisadi, texniki-texnoloji, hərbi, həm də insan resursları baxımından bu iddiaya imkanları dünyada mövcud olan bütün dövlətlərin imkanından əsaslı dərəcədə çoxdur. Rusiyaya gəldikdə isə bu iki dövlət ilə ancaq nüvə silahı və kosmik texnika sahəsində müqayisə edilə biləcək imkanlara malikdir. Dünya ağalığına nə sahib olmaq, nə də bu statusu qoruyub saxlamağa nail olmaq bu iki amilin vasitəsilə mümkün deyil. Bu gün hər hansı bir böyük dövlətlərin arasında nüvə müharibəsinin baş verməsi bəşərin məhv olması deməkdir və bunu da hamı bilir. Məhz bu səbəbdən dövlətlərarası mübarizədə nüvə silahından hələlik heç kəs istifadə etmir və bu səbəbdən hər bir imkanı olan dövlətin nüvə silahı əldə etməyə çalışması hücum məqsədi deyil, başqalarını ona hücum etməkdən çəkindirmək məqsədi daşıyır. Müsəlman dövlətlərinin iki cəbhəyə sünnü-şiə cəbhəsinə bölünərək müharibə etməsində qalib tərəf olmayacaq. Yəni hər iki tərəfi silahla təmin edən böyük güclər, hər iki tərəf yetərincə zəifləyib tamam gücdən düşən kimi hakim rolunda ortaya çıxaraq, hər iki qurbanlıq tərəfi öz aralarında bölüşdürərək müharibəyə son qoyacaqlar. Rusiyanın isə dünya miqyasında bu miqyaslı toqquşmalarda təkbaşına tərəflərin birinin maddi təminatını öz üzərinə götürmək, və sonda qarşı tərəflə tam hüquqlu hakim rolunda bu bölgüdə iştirak etmək üçün lazım olan şərtlərin heç biri, yəni, nə iqtisadi, nə də texniki-texnoloji gücü yoxdur. Bunu Suriyada, Liviyada baş verən prosseslərdə Rusiyanın düşdüyü durum sübut etdi. Burada Rusiya ancaq Türkiyənin kürd məsələsinə görə ABŞ-a müqaviməti və bu məsələdə Türkiyənin mənafeyini nəzərə alması hesabına öz mövqeyini möhkəmlədə bildi. Malta sahillərində sualtı gəmidə Qorbaçov-Buş razılaşmasına əsasən SSRİ məkanında yaranan dövlətlərin ərazisinin SSRİ-nin nüfuz dairəsinə aid olması, Qərb ölkələrinin burada baş verənlərə müdaxiləsinin qadağan olunması nəzərdə tutulduğundan Gürcüstanda, Moldovada, Ukraynada, Dağlıq Qarabağdakı münaqişələrə NATO birbaşa müdaxilə edə bilmir. Elə Türkiyənin də birinci və ikinci Qarabağ münaqişəsində bu toqquşmaya bilavasitə müdaxilə edə bilməməsi bu səbəbdəndir. Buna görə Qərb tədricən Gürcüstan, Ukrayna və s. NATO-ya qəbul etməklə Rusiyanın bu ölkələrə qarşı işğalçı hərəkətlərinə birbaşa qarışmağa əvvəlcə hüquqi zəmin yaradır. Dağlıq Qarabağdakı münaqişəyə Rusiyanın Türkiyəni müəyyən həddə yaxın buraxması isə ilk növbədə Ermənistanın açıq-açığına, qərblə, Çinlə, inteq asiyaya getmə cəhdi, Türkiyənin Rusiya ilə yaxınlaşma prossesi və Qərbi, Cənubi Qafqaza buraxmaq istəməməsinin nəticəsidir. Müsəlman dövlətlərinin sünnü-şiə əsasında qruplaşdıraraq toqquşdurulması baş verərsə Rusiya onların heç birinə himayədarlıq etməyəcək. Himayədarların biri ABŞ, digəri isə Çin olacaq. Müsəlman ölkələrinin iki əks barrikadada cəmləşməsinin kökündə heç də ideoloji amil durmur. Bu ancaq məsələnin mahiyyətini gizlətmək üçün istifadə edilən pərdədir. Əsas məsələ son dövrlərdə əhəmiyyətli dərəcədə güclənmiş, bundan sonra daha çox böyüyərək dünyanın əsas güc mərkəzlərindən birinə çevrilmək üçün real potensialı olan və coğrafi cəhətdən fövqəladə dərəcədə strateji əhəmiyyətli məkanda yerləşən Türkiyə ilə ABŞ-ın maraqlarına uyğun gəlməyib, kifayət qədər iqtisadi, hərbi gücə malik olmaqla yanaşı, artıq nüvə silahı əldə etmək ərfəsində olan İranın toqquşma mərkəzində qoyaraq sünnü-şiə bəhanəsilə digər kiçik, zəif müsəlman ölkələrini də bu münaqişəyə cəlb etmək məqsədidir. Çinin İrana 25 illik müddətində 400 milyard dollar kapital yatırmaq haqqında bağladığı müqavilə, onun bu toqquşmada İranı himayə edən tərəf olacağını düşünmək üçün çox ciddi əsas verir. Çünki, İran kimi kiçik, həm də etnik cəhətdən sabit olmayan bir ölkəyə bu qədər vəsaitin yatırılması ancaq uzunmüddətli və qlobal məqsədlərə çatmaq naminə edilə bilər. Çinin məqsədi fars körfəzi vasitəsilə Aralıq dənizinə və ya Hind okeanına çıxmaq olsaydı, o Qazaxstan-Türkmənistan-İran dəmir yolu ilə bütün İran ərazisindən keçərək fars körfəzinə çıxmaqdansa, qısa yolla birbaşa Pakistan ərazisindən keçib Ərəb dənizinə çıxa bilərdi. Pakistana yatırdığı 70 milyard dollar kapital da, məhz bu məqsədə xidmət edir. Lakin Çinin İrana Qazaxstandan keçərək bağlanmasından daha çox, onun Tacikistan-Əfqanıstan və Türkmənistan vasitəsilə bağlanması daha sərfəlidir. Çünki bu, birbaşa İranın gələcəkdə Tacikistan və Əfqanıstanı öz tərkibinə qatması planının reallaşdırılmasında çox önəmli məsələdir. Farslar çox yaxşı bilirlər ki, gec-tez bu günkü İran ərazisində yerləşən təkcə Azərbaycan türklərinin torpaqlarını deyil, eləcə də Türkmənistan türklərinin də Sari, Qorqan, Ponbədə-Kavus şəhərləri də daxil olmaqla bütün torpaqlarını vahid Turan dövlətində birləşmiş türklərə qaytarmalı olacaqlar. Buna görə də farslar ən azı Əfqanıstanın bir hissəsi vasitəsilə Tacikistanı özlərinə birləşdirməyə çalışırlar. Həm də bunu türk düşmənçiliyi əsasında Çinin himayədarlığı altında. Çinin isə Pakistana yatırdığı 70 milyard sərmayə təkcə kommersiya məqsədi güdməyib, həm də İran-Türkiyə savaşında ABŞ və Türkiyə ilə yaxşı münasibəti olan Pakistanı neytrallaşdırmaq məqsədi də güdür. Əgər bu münaqişədə Rusiya Çin ilə «kiçik qardaş» qismində müttəfiq olsa, sonrakı mərhələdə öz ərazisinin 80 faizini Çinə verməyə məcbur olaraq cırtdan dövlətə çevrilmiş olacaq. Müsəlman dövlətlərinin toqquşmasının nəticələrini ancaq ABŞ və Çin bölüşə bilər. Rusiya bu bölgüdə və sonrakı mərhələdə ancaq itirən tərəf ola bilər. Əgər Türkiyə, Pakistan, Azərbaycan; Türkmənistan, Qazaxstan, Özbəkistan, Qırğızstan, Şimali Kipr Türk Respublikasından ibarət Turan Konfederasiyası qurularaq Rusiyanın Turanla səmimi müttəfiqlik münasibətləri, eləcə də bu müttəfiqlərin NATO ilə yaxşı münasibətləri qurulduğu halda Rusiya labüd olaraq dağılmaqdan xilas olub, dünyada söz sahibi olmaqla yanaşı Çinin təcavüzü obyekti olmaqdan da qurtula bilər.

**Şapur QASİMİ**